# NAXCIVAN ƏTIRLİ DUYĞULARIN POETİKASI

## (Şair Sona Amalın yaradıcılığı haqqında düşüncələr)



*Balayar SADİQ*

**Mübarək Sözün işığında yol gedənlər çoxdur. Bəzən adama elə gəlir ki, daha deyiləsi yeni söz qalmayıb, bütün mövzularda hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. Dünyanın, təbiətin, cəmiyyətin saysız-hesabsız görüntüsü mövcuddur və bu vizuallığı uşaqdan tutmuş qocayadək hər kəs özünəxas rakursdan qəbul edir. Şairlər bu görüntüləri, bu mövcudluğu özünəməxsus formada poetik duyumla ifadə edirlər.**

Poeziya insanın ömür yolunda onun icindəki əhvali-ruhiyyədən dogan duygu və dusuncələriini ,cəmiyyət və təbiət ,dünya və həyat haqqındaki təəsssüratlarını tərənnum edir.

Bu duyğu və düşüncələr içində istedadlı şair Sona Amalın poetik dünyasından söz acmaq istəyirəm.. O, artıq bir neçə kitabın müəllifidir.

***Sona xanım Naxçıvanda dünyaya göz açıb. Uzun müddətdir ki, pedaqoji fəaliyyətlə məşğuldur. Bacarıqlı və savadlı müəllim kimi səmərəli fəaliyyəti dövlət tərəfindən qiymətləndirilib və "Tərəqqi" medalına layiq görülüb. O, gənc yaşlarından poeziyaya həvəs göstərib. İndiyə kimi müxtəlif mətbuat orqanlarında şeirəlri çap olub. İstedadlı şair hazırda da doğma yurdu Naxçıvanda yaşayır və orada yazıb-yaradır.***

Onun fərdi poetik siması təkcə yazdığı şeirlərin üslub xüsusiyyətlərindən deyil, həm də hadisələrə yanaşmasında, onları seçməsində və dəyərləndirməsində, lirik "mən"in əhval-ruhiyyəsini təbii və səmimi poetik boyalarla canlandırmasındadır. Şairin lirik qəhrəmanı həssas müşahidə qabiliyyətilə həmin proseslərdə fəal iştirak edir. Onun poeziyasında vətənsevərlik, el-oba məhəbbəti, saf insan sevgisi, həsrət, hicran, vəfa duyğuları böyük önəm daşıyır. Şairin doğma Nehrəm kəndinə həsr etdiyi şeirdə vətənpərvərlik duyğuları məxsusi bədii detallarla əks olunur. Müəllif qayəsi, sənətkarlıq bacarığı yüksək mənəviyyat poetik nümunənin bədii həllində, məzmun və mündəricəsində, obrazlı təqdimatında məharətlə açılır. Onun poetik axtarışlarında milli köklə, milli keçmişə, yaddaşla əlaqə bağlılığının poetik tədqiqi önəmli məziyyət daşıyır.

*Günəş Haçadağdan hüsnünü süzər,*
*Şərəfin, şöhrətin dillərdə gəzər,*
*Adına-sanına dəyərsə nəzər,*
*Başına dolanım, a Nehrəm kəndim.*

*Müqəddəs bir yerdir isti qucağın,*
*Dünyaya yayılsın səsin, sorağın,*
*Başın üstə dalğalansın bayrağın,*
*Hüsnündən kam alım, a Nehrəm kəndim.*

Bu şeir Sona Teymurbəylini vətəndaş şair kimi səciyyələndirərək, həm də onun vətəndaşlıq qayəsinin daha dərin mətləblərdən soraq verdiyinə şahidlik edir.

"Öndərim adınla qürur duyurdu,
Mən də qürurlanım, a Nehrəm kəndim"

bu misralar şeirin bədii-ictimai səciyyəsini daha da zənginləsdirib. Ulu Öndərin Nehrəm kəndinə ve adamlarina olan sevgisini xatirlatmaqla,sair bu elin-obanin dahi insana sevgisini bir daha diqqətə catdirir ve bu yurdun ovladi kimi vəfadarligini poetik mustəvidə isiqlandirir.Bu poetik faktor Sona xanimin bir insan və sair kimi dərin mənəviyyatindan xəbər verir.

***İnsan mənəviyyatı zəngin və həssas olduğuna görə daxili iztirablarını, sevinc və kədərini həyat və cəmiyyət haqqında düşüncələrini ehtiva etmək üçün daha qüdrətli, həm də ecazkar bir vasitəyə ehtiyac var. Bu bənzərsiz vasitə bədii sənət və onun obrazlı dilidir. Məlumdur ki, yaradıcılıq istedadına malik olanlar həyat haqqındakı fikir və hisslərini sənət dili ilə ifadə edir, digər insanlar isə orada öz fikir və düşüncələrini, həqiqət və arzularını oxucu, dinləyici, tamaşaçı qismində tapmağa çalışırlar.***

Hər bir insanın həyata, cəmiyyətə aid görüşləri, özü və başqaları haqqında arzu və niyyətləri, ümidləri özünəməxsus bir istiqamətdə intişar tapır. Lakin istedadlı insanı fərqləndirən başlıca amil, onun həyatda, ümumən insanlıq üçün dəyəri, əhəmiyyətli cəhətləri, bariz əlamətləri görə bilməsində, sənət dili ilə cilalayaraq, onun fəlsəfi mahiyyətini gözəlliyi və ülviliyi ilə kəşf etməsindədir.

İstedad uca Tanrının insan övladına bəxş etdiyi ən dəyərli mənəvi sərvətidir. İstedadlı insan həvəs göstərdiyi sahədə özünəməxsus düşüncə və fikirlərlə həmişə seçilir. Seçilmək xüsusiyyətləri istedadın təbiətinə xas olan önəmli cəhətlərin inikasıdır. Xalqımız istedad sarıdan heç vaxt korluq çəkməyib.



Poeziya aləmində elə şairlər vardır ki, onların istedadının mayası xalq təfəkkürünün zənginliyindən qaynaqlanaraq, insanın arzusunu, ümidini, bütövlükdə mənəvi dünyasını rəvan, səmimi və aydın əks etməsindədir. Sona Amal belə şairlərdəndir.

O, həyat və cəmiyyət haqqında öz düşüncələrini, hisslərini çox maraqlı, səmimi orijinal vasitələrlə, bədii priyomlarla ifadə etməyi bacarır. Maraqlıdır ki, Sona xanım sadə, ahəngdar misralarında da ciddi ictimai fikirləri poetik ovqatda əyanilәşdirir və bu məziyyət onun şair-vətəndaş bütövlüyünün təzahürü kimi üzə çıxır. Onun qələmə aldığı mövzularda həmişə zamanın nəbzi döyünür, müasirliyin nəfəsi duyulur.

*Vətəninin, el-obanın başına,*
*Pərvanətək hey dönəsən, qəşəngdir.*
*Buludların dönüb büllur yaşına,*
*Torpağına nur ələsən, qəşəngdir.*

*Oğul odur, daş üstünə daş qoya,*
*İgid odur, el yolunda baş qoya,*
*Səxavətdə olmaya ta daş-qaya,*
*Yetim könlün yurd eləsən, qəşəngdir.*

*Göz dikirik sərvət adlı tamaha,*
*Bilə-bilə hey batırıq günaha,*
*Acgözlüklə can atırıq sabaha,*
*Halallıqla yurd tikəsən, qəşəngdir.*

*Sünbüllərtək, gəlin verək baş-başa,*
*Qayalartək sarılaq biz dağ-daşa,*
*Arxa dursaq hər an dosta-qardaşa,*
*Qəlbdən qəlbə yol çəkəsən, qəşəngdir.*

Onun şeirlərində əxlaqi-mənəvi mövzular lirik qəhrəmanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini əks etdirməklə yanaşı, həmçinin şeirin estetik prinsiplərini də əyanilәşdirir. Lirik qəhrəmanın məhəbbət, sevgi axtarışları, onun imtahanlardan emosional sarsıntılardan keçən və möhkəmlənən insani keyfiyyətlərinin təsdiqini, həm də şeirlərin məzmun və mündəricəsini təşkil edir. Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır.

*Bahar arzulama, yazı arama,*
*Sönmüş ocağımda közü arama,*
*Misrama düşməyən sözü arama,*
*Ol söhbətim, sözüm, sən yanımdasan.*

*Cüt gəzib-dolaşaq çölü-çəməni,*
*Yığaq lalə, nərgiz, tər yasəməni,*
*Buludlar tutsa da yağışa məni,*
*Ol çətirim özün, sən yanımdasan.*

Sona Amalın şeirlərində milli kolorit qüvvətli olduğu üçün böyük maraq doğurur. Bu cəhət şeirlərin mövzusunda, mütəmadi müraciət olunan qoşma janrının ahəng və ritmində, bədii təsvir vasitələrində nəzərə çarpır.

O, insan mənəviyyatının dolğunluğunu tərənnüm edəndə də, doğma yurdu vəsf edəndə də, elin adət-ənənələrindən yazanda da, təbiətin gözəlliklərini canlandıranda da kolorit zənginliyi diqqəti cəlb edir. Şairin təbiət mövzusunda və qoşma janrında qələmə aldığı "Bənövşə" şeiri öz zərifliyi və poetik təravəti ilə könül oxşayır.

*Baharın ilk şehi yuyar üzünü,*
*Yoluna nur çilər danım, bənövşə.*
*Qar-sazaq qorxutmaz sənin gözünü,*
*İlham verir xoşbəxt halın, bənövşə.*

*Kol-kosun altından boylanıb yola,*
*Ürkək-ürkək baxıb hey sağa-sola,*
*Bahar gülləriylə girib qol-qola,*
*Sevincdən qaynayır qanın, bənövşə.*

Şair ruhunun güzgüsü lirikadır. Çox zaman bu lirik nümunələr qələm sahibinin həyat və cəmiyyət haqqında düşüncələri, fərdi xarakteri, həmçinin şəxsiyyəti barədə dolğun təəssürat yaratmağa imkan verir.

Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır.

Unutmaq lazım deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən başlıca amillərdən ən önəmlisi səmimiyyətdir.

Bu mənada Sona Amal yaradıcılığı öz səmimi poetikası ilə maraq doğurur.

Onun şeirdən-şeirə püxtələşməsi, yaradıcılığındakı forma və məzmun əlvanlığı, poetik imkanlarının getdikcə zənginləşməsi diqqətdən yayınmır.

**Sona xanımın yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, yurdsevərliyi, fəallığı mühüm önəm daşıyır. Onun poetik nümunələrində təqdim olunan haqqədalət sevgisi, vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları səmimi şair obrazının ehtivasıdır.Sona Amalın seirlərindən yasadıgı və yazıb-yaratdıgı dogma Naxçıvanın ətri duyulur.Ona yaradıcılıq ugurları arzulayiram!**